# İşğaldan azad edilmiş ərazilərdə yeni quruculuq dövrü başlayır

Pandemiya səbəbindən bəlkə də bütün dünyanın uğursuz hesab etdiyi 2020-ci ilin ölkəmiz, xalqımız üçün ən böyük uğuru illərdir işğal altında olan torpaqlarımızın müzəffər Ali Baş Komandanımızın rəhbərliyi və rəşadətli ordumuzun səyi nəticəsində düşmən tapdağından azad edilməsi oldu. Azərbaycanın Ermənistan tərəfindən işğal edilmiş ərazilərinin azad edilməsi əməliyyatı daha bir vacib məsələni aktuallaşdırdı - həmin ərazilərdə dağıdılmış infrastrukturun, viran qoyulmuş şəhər və kəndlərin bərpası. Şübhəsiz ki,ən qısa zamanda erməni vandalları tərəfindən dağıdılan, xarabalığa çevrilən yaşayış məntəqələrimiz yenidən abadlaşacaq, azad olunmuş ərazilərə həyat qaytarılacaq, yeni yaşayış binaları, məktəblər, tibb ocaqları və s. obyektlər tikiləcək, bütün lazımi infrastruktur yaradılacaq.



### Suqovuşan və Talış avtomobil yolu

Təsadüfi deyil ki, bərpa işlərinə hələ müharibənin qızğın vaxtlarında, oktyabr ayında start verilmişdir. Prezident İlham Əliyevin tapşırığına əsasən, Ermənistan silahlı qüvvələrinin işğalından azad edilmiş Tərtər rayonunun Suqovuşan və Talış kəndlərinə gedən avtomobil yollarının bərpasına başlanılmışdır və bu istiqamətdə aparılan işlər artıq birinci mərhələ üzrə yekunlaşdırılıb. Bundan başqa Füzuli-Şuşa avtomobil yolunun təməlqoyma mərasimi Qarabağa həyatın qaytarılmasının rəmzidir.

### Füzuli hava limanı

Füzuli şəhərində təməli qoyulan hava limanı işğal olunmuş ərazilərdə aparılan quruculuq işlərinin bariz nümunələrindəndir. Füzuli rayonunda beynəlxalq hava limanının inşası və yaxın gələcəkdə istifadəyə verilməsi isə işğaldan azad edilən ərazilərin inkişafı baxımından vacib layihələrdən hesab olunur. Belə ki, bu layihə Yuxarı Qarabağ və işğaldan azad edilən digər rayon və şəhərlərdə turizm sektorunun inkişafı baxımından da əlverişlidir. Bununla yanaşı həmin ərazilərdə iqtisadiyyatın bərpası da qeyri-neft sektorunun inkişafına müsbət təsir göstərəcək ki, bu zaman hava limanı yükdaşımalar, xüsusən də beynəlxalq yükdaşımalar baxımından mühüm rol oynayacaq. Füzuli rayonu həm də Yuxarı Qarabağa gedən nəqliyyat qovşaqları üzərindədir. Siyasi şərhçilərin fikirlərinə əsasən, yaxın gələcəkdə Naxçıvan dəhlizinin istifadəyə verilməsindən sonra hava limanı həm də nəqliyyat qovşağı olaraq böyük əhəmiyyətə malik olacaq.

### Şuşa bərpa olunur

Dövlət başçısının xüsusi tapşırığına əsasən Qarabağın incisi sayılan və mədəniyyət paytaxtı elan edilən Şuşa şəhərində quruculuq işləri artıq başlamışdır.Şəhərin elektrik və su-kanalizasiya sisteminin bərpası işləri davam etdirilir. Yuxarı Gövhər Ağa məscidinin elektrik təchizatı bərpa olunub. Eyni zamanda tarixi Şuşa Qalasında da layihələndirmə işləri aparılır. Bərpa zamanı qalanın tarixi görünüşü saxlanacaq, lakin Azərbaycanın mədəni paytaxtına layiq görkəm alacaq. Onu da qeyd edək ki, 1992-ci ildən başlayan işğal dövründən ermənilər bu qaladan restoran kimi istifadə ediblər.

Tezliklə Xurşudbanu Natavanın sarayının da bərpası planlaşdırılır. Prezidentin tapşırığı ilə bunun üçün yerli və xarici mütəxəssislər cəlb edilib və layihələndirmə işləri aparılır.

### "Ağıllı şəhər" və "Ağıllı kənd" konsepsiyası üzərində işlənilir

Qarabağın bərpası "Ağıllı şəhər" və "Ağıllı kənd" konsepsiyası üzrə həyata keçiriləcək. İlk növbədə bu konsepsiyanın tətbiqi bərpa prosesini sürətləndirəcək. Növbəti mərhələdə həmin ərazilərə texnoloji investorlar cəlb ediləcək. Təbii ki, sonrakı dövrdə isə həmin regionda tətbiq olunmuş layihələr digər regionlarımız üçün də bir təcrübə rolunu oynayacaq. Bu konsepsiya bizə nələri verir? - Təhlükəsizlik problemlərimizi həll etməyə imkan yaradacaq, idarəetmə prosesində vətəndaş iştirakını artıracaq,yaşayış xərcini aşağı salacaq, ətraf mühitin qorunmasını təmin edəcək, belə ki, həmin regionda yaşıl şəhərin yaradılmasına kömək edəcək ki, bunun əsasında sensor küçə işıqlandırılması tətbiq edilə bilər. Yaxud istilik elektrik sərfini izləyən mexanizm quraşdırıla bilər ki, bu da nəticədə elektrik qənaətinə gətirib çıxara bilər. Hətta ağıllı suvarma sistemini tətbiq etməklə həddindən artıq su sərfiyyatının da qarşısı alına bilər. Bundan əlavə dünyada ən çox ağıllı şəhər tətbiq olunan şəhərlər dünyanın ən böyük turizm mərkəzləridir. Qarabağ regionu da yüksək turizm potensialına malik olduğu üçün burada tətbiq olunacaq təmiz şəhər, tarixi abidələr haqqında məlumat verən robot bələdçilər, hətta ağıllı zibil qutuları, yaşıl enerjinin tətbiqi həmin regionu münbit bir şəraitə çevirərək turist axınına səbəb olacaq.

Prezident İlham Əliyevin xalqa müraciətində vurğuladığı kimi: "Bizim ölkəmiz üçün yeni dövr başlayır. Yeni quruculuq dövrü, inkişaf dövrü, azad edilmiş ərazilərimizin bərpası dövrü. Mən tam əminəm ki, Azərbaycan xalqı bu dövrdə də birlik, həmrəylik göstərəcək, güclü iradə göstərəcək. Azərbaycan xalqı yenə də birləşərək dağıdılmış bu şəhərləri, kəndləri bərpa etmək üçün əlindən gələni edəcəkdir. Biz bundan sonra böyük və qürurlu xalq kimi yaşayacağıq. Beynəlxalq müstəvidə, bölgədə öz sözümüzü demişik. İstədiyimizə nail olmuşuq və əminəm ki, bundan sonra bizim xalqımızı təhlükəsiz və xoşbəxt həyat gözləyir".

**Əfsanə ZAKİROVA,**
**«Qəbələ»**

# Hər əməli insanın, tərəzidə çəkilər, Düzlüyü də çəkilər, qərəzi də çəkilər...

***Bildiyimiz kimi, II Vətən Müharibəsində rayonumuzun müəllim "ordusundan" da iştirakçılar olmuşdur. Məktəbi səngərlə əvəz edən belə müəllimlərdən biri-Mürvət Bilalov adına Aydınqışlaq kənd orta məktəbinin müəllimi, məktəbin hərbi rəhbəri Əhmədov Hikmət Nüsrət oğlu ilə görüşmüş, ondan müsahibə almışıq.***

***Müsahibəni oxucularımıza təqdim edirik.***

**Müharibə başlamazdan əvvəl müharibə haqqında düşünürdünüzmü?**

- Vətən torpaqlarının 20 faizinin düşmən tapdağında olması, öz doğma el-obasından məcburən qovulan soydaşlarımızın həyatı, minlərlə şəhidlərimizin qanı tökülməsinə, qazilərimizin şikəst olmasına rəğmən torpaq itkisi ilə yaşamaq, dövlətimizin humanist siyasətinə zidd olaraq atəşkəsin bu illər ərzində demək olar ki, hər gün pozulması, erməni vandalizmi məni də müharibə haqqında düşünməyə vadar edirdi. Hər an ali baş komandanımızın əmrini gözləyirdim. Hər dəfə Minsk qrupunun danışıqlarından sonra müharibənin labüdlüyünü düşünürdüm.

**Sizcə vətən nə deməkdir?**

-Mən pedaqoqam, vətənpərvərlik, milli-mənəvi dəyərlər, xalqımızın rifahı və gələcəyimizin qarantı gənc nəsilə öyrətdiyimiz, onların dünyagörüşündə formalaşdırdığımız keyfiyyətlər bizim başlıca məqsədimizdir. Vətən insanın var olması deməkdir.

Vətən-torpaq, xalq deməkdir!

**Nə üçün döyüşə getmək istəyirdiniz?**

- Vətənini sevən hər bir şəxsin yaşama səbəbi var. Bu azad, bütöv torpaqları olan bir vətənin, firavan həyat yaşayan bir xalqın, bütün din və tarixi köklərini özündə saxlaya bilən bir millətin, sülh şəraitində yaşayan bir ailənin, gələcəyin qarantı olan övladların olmasıdır. Bütün bunlara sahib olmaq məqsədi ilə, dövlətimizin dövlətçilik siyasətini qorumaq üçün döyüşlərdə iştirak etmək istəyirdim... və istərdim.

**Oxucularımız sizi necə tanısın?**

- Aydınqışlaq kənd sakiniyəm. Hərbi işə marağım həmişə olub, ta uşaqlıq illərimdən. Tale elə gətirdi ki, ali məktəbdə oxuduğum dövrdə mənə hərbi rütbə almaq qismət oldu. Ali məktəbi bitirdikdən sonra hərbi qulluğumu Naxçıvan N saylı hərbi hissədə leytenant kimi başladım, baş leytenant rütbəsinə yüksəldim. Hərbi qulluqdan sonra könüllü olaraq 2010-2012-ci illərdə Şəmkir-Qazax zonasında baş leytenant kimi orduda xidmət etdim. 2012-ci ildə Şəmkir -Qazax zonasının N saylı hərbi hissəsindən tərxis olunaraq baş leytenant kimi ehtiyata buraxıldım.




2016-cı il Aprel döyüşləri torpaqlarımızın azad olunması üçün ordumuzun-igid vətən övladlarının hər an hazır və döyüş qabiliyyətinin yüksək olduğuna, torpaqlarımızı lazım gələrsə döyüş yolu ilə qaytarmaq əzminin yüksək olduğuna zəmin yaratdı.

2020-ci ilin iyul hadisələri - ermənilərin işğalçı siyasətini davam etdirmək məqsədilə Tovuz hadisələrini törətməsi, general-mayor Polad Həşimovun xaincəsinə ölümü müharibənin labüdlüyünü bir daha tezləşdirdi.

Vətənpərvər oğullar hər gün hərbi komissarlığa üz tutub könüllü olaraq orduya yazılmaq, şəhidlərimizin, igid Poladımızın qisasını almaq üçün könüllü ərizələr yazırdı. Gənclərimizin qisas hissi çox güclü idi. Mən də hərbi təlim müəllimi kimi bu gənclərə qoşularaq, hərbi bilik və təcrübəmə güvənərək bir neçə dəfə hərbi komissarlığa müraciət edərək hərbi qulluğa təkrar çağırılmağım üçün xahiş etdim. 2020-ci ilin sentyabr ayının 20-də səfərbərliyə dəvət aldım.

Əvvəlcə hərbi təlim toplantısına göndərildim. Ayın 21-dən 26-na kimi Goranboy rayonunun N saylı hərbi hissəsinə göndərilərək təyin olunmuş hissələrə bölündük. Məni də birinci taborun II bölüyünə komandirin müavini təyin etdilər. Sentyabrın 27-də Ali Baş Komandanın əmrinə əsasən Talış-Suqovuşan istiqamətində əks-həmlə yaradıldı. Düşmənin 30 il ərzində qurduğu mühəndis-istehkam ön xəttini yararaq hücuma keçdik... Talış kəndini, Suqovuşanı azad etdik, şanlı bayrağımız azad olunan torpaqlarda dalğalandı. Mən də bu döyüşlərdə ayağımdan zədə aldım, yüngül yaralandım. Əvvəl Naftalan, Gəncə qospitalında, sonra isə Bakı Şəhər Mərkəzi qospitalında müalicə olundum, yenidən orduya qayıtdım. Həmçinin Qubadlı və Laçının azad edilməsi uğrunda gedən döyüşlərdə döyüş fəaliyyətimi davam etdirdim.

Ali Baş Komandanımızın sərəncamına əsasən Laçın və Suqovuşanın azad edilməsinə görə medallarla təltif olundum. Ən böyük təltifim isə öz elindən-obasından məcburən çıxarılan, köçkün və qaçqın statusunun mənəvi və cismani acılarını yaşayan insanların üzünün gülməsi, gözlərində qeyri-adi nur işığı yaranması idi. Qəlbim qürurla, fərəhlə dolmuşdu, axı hər bir insanın əməli onun vicdan tərəzisi ilə ölçülər.

**Dəmir yumruq əməliyyatı sizə nə əxz etdi?**

- Əlbəttə xalq ilə ordunun Ali Baş Komandanımızın ətrafında birliyi məhz "Dəmir yumruq" əməliyyatı simvolunu yaratdı.

Dəmir yumruq vandalizmə, faşizmə, zorakılığa, xainliyə, yalana və hiyləyə qarşı həqiqəti, qəhramanlığı, düzgün siyasəti və xalq ilə ordunun vəhdətini, gücünü, Azərbaycan gəncliyinin qüdrətini əxz etdi, təkmənə yox, bütün dünyaya!

**Qalib ordunun əsgəri və zəfər müharibəsinin iştirakçısı olmaq həyatınızda nə dəyişiklik etdi?**

- Şairimiz Məmməd Araz şeirlərindən birində yazırdı:

***Kimdir o arxadan sənə daş atan?-***
***Dönəndə dizini qucaqlayanlar!***
***Boğazdan yuxarı ürək yaşadan,***
***Ürəkdən aşağı baş saxlayanlar...***

Qürur hissi, vicdan rahatlığı həyatıma olan inamımı daha da artırdı. Həyatını qurban verən igid əsgər yoldaşlarımın, bədəninin müxtəlif orqanlarını torpaqlarımızın azadlığına fəda edən qazilərimizin qəhramanlığı, şücaəti Azərbaycanımıza Qələbə sevincini yaşatdı, I Qarabağ və II Vətən Müharibəsi şəhidlərinin qisası alındı .

Bu müharibənin iştirakçısı kimi bu həyatıma bir vicdan yüngüllüyü bəxş etdi.

**Müəllim, yoxsa döyüşçü şərəfi - hansı daha yüksəkdir?**

- Müəllim çox şərəfli peşədir. Axı müharibədə döyüşən hər bir insanın müəllimi olmuşdur. Əgər müəllim öyüdü, müəllim nəsihəti, ağıllı, ziyalı olmasaydı, güclü siyasətçi, qürurverici, qorxmaz və qəhrəmanlıqlarla dolu döyüşlər, mübariz döyüşçü yetişərdimi?!

Müəllim şərəfi döyüşçü şərəfinin stimuludur.

**Müsahibəyə görə təşəkkür edirik, Hikmət müəllim!**

***Bibixanım İSAYEVA.***